## Qadınların Səlahiyyətləndirilməsi Prinsiplərinə (WEPs) Dəstək haqqında
## Baş Direktorun Bəyanatı

Biz, dünyanın müxtəlif ölkələrindən olan biznes liderləri, qadınlar və kişilər arasında bərabərliyin təşviqini dəstəkləyirik və bununla aşağıdakı məqsədlərə nail olmağı hədəfləyirik:

• Fəaliyyətimizə ən geniş istedad potensialını cəlb etmək;
• Şirkətlərimizin rəqabət qabiliyyətini artırmaq;
• Korporativ məsuliyyət və dayanıqlılıq öhdəliklərimizi yerinə yetirmək;
• Əməkdaşlarımız, vətəndaşlarımız və ailələrimiz üçün arzuladığımız cəmiyyəti əks etdirmək məqsədilə şirkət daxilində davranış modelləri formalaşdırmaq,
• Qadınlar və kişilər, qızlar və oğlanlar üçün bərabər imkanlar yaradan iqtisadi və sosial şəraitin təşviqinə töhfə vermək;
• Fəaliyyət göstərdiyimiz ölkələrdə dayanıqlı inkişafı dəstəkləmək.

Bu səbəbdən, Birləşmiş Millətlər Təşkilatının Qadınların Bərabərliyi və Səlahiyyətləndirilməsi üzrə Agentliyi (UN Women) və BMT Qlobal Sazişi tərəfindən hazırlanmış və təqdim edilmiş Qadınların Səlahiyyətləndirilməsi Prinsipləri - "Bərabərlik biznesin əsas dəyəridir" sənədini alqışlayırıq. Bu Prinsiplər biznes və digər sektorlara qadınların səlahiyyətləndirilməsini irəlilətmək üçün ata biləcəkləri yeddi əsas addımı təqdim edir.

Qadın və kişilərin bərabər şəkildə rəftar görməsi təkcə düzgün və ədalətli yanaşma deyil, bu, həm də biznes baxımından faydalıdır. Qadınların müəssisələrimizdə və cəmiyyətlərimizdə tam iştirakı həm bu gün, həm də gələcəkdə sağlam biznes məntiqinə əsaslanır. Qadınların səlahiyyətləndirilməsini əsas məqsədlərdən biri kimi qəbul edən geniş mənalı dayanıqlılıq və korporativ məsuliyyət anlayışı hər birimiz üçün faydalı olacaq. Qadınların Səlahiyyətləndirilməsi Prinsiplərinin yeddi addımı bizə bu imkanlardan istifadə etməyə kömək edəcək.

Biz digər biznes liderlərini də bizə qoşulmağa və bu Prinsipləri iş yerində, bazarda və icmalarda qadınların səlahiyyətləndirilməsi və şirkətlərimizin, eləcə də cəmiyyətlərimizin inkişafı üçün fəaliyyətlərə rəhbərlik edən bələdçi kimi istifadə etməyə çağırırıq. Biz, tərəfdaşlarımıza irəliləyişimiz barədə məlumat vermək üçün dayanıqlılıq hesabatlarımızda cinslər üzrə fərqləndirilmiş məlumatlardan istifadə etməyə səy göstərəcəyik.

Baş direktorun adı* ____________________________________________________________

Şirkətin adı: _____________________________________________________________

Tarix: ____________________________ İmza: ____________________________

WOMEN'S EMPOWERMENT PRINCIPLES

United Nations Global Compact

UN WOMEN

**Qeyd:** *Baş Direktor və ya bərabər tutulan vəzifəni daşıyan şəxs sənədi imzalayan şəxs olaraq şirkətdə ən yüksək qərarvermə səlahiyyətinə malik olmalı və idarəetmə qərarlarının qəbuluna məsul olmalıdır.*